# Ana harayı ilə çağlayan Şəlalə

AMEA-nın aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru, dosent Şəlalə Qabil qızı Hümmətli (Şəlalə Ana) "Bir gün şeirə susasan..." adlı ("Elm və təhsil", 2023) kitabı ilə oxucularla salamlaşır:

Bir gün şeirə susasan,
gir qapıdan içəri.
Bir içim şeir "süzüm",
misra-misra iç, əri!..
Ərisin ürəyinin buzu
Şeirin odunda,
Silinsin ciyərindən susuzluğun əsəri...

Bu minvalla şeirsevərləri özünün poeziya nümunələrinə "qonaq edən" şair həm də burada bir oksümoron yaradır: bir yandan şeir vasitəsilə susuzluğu yatırmaq - daxildəki mənəvi yanğının odunu söndürmək istəyi əks olunur, digər tərəfdənsə bəzilərinin ürəyinin buzunun şeirin istisində əriməsini arzulayır. Axı, şeir odlu-alovlu, atəşin qəlbin duyğularından yaranır və daş qəlbləri, donmuş vicdanları da ecazkarlığı ilə hərəkətə gətirir. Beləcə, müəllif dolayısı ilə şeirin, poeziyanın müxtəlif düşüncəli oxucu kütləsinə ayrı-ayrı biçimlərdə göstərəcəyi təsir gücünü ifadə etmək istəyib. Elə bu niyyətlə də oxucularını özünün poetik söz dünyasına dəvət edir.

Şəlalə xanım klassik poeziya ənənəsinə uyğun olaraq kitabda minacat, nət kimi poetik formalara da müraciət etmiş, Allahın, peyğəmbərin (s.), imamların (ə.) şəninə də şeirlər yazmışdır.

Vaxtilə Türkiyə mətbuatında türkcə işıq üzü görmüş şeirlərini, habelə sözlərinə mahnı bəstələnmiş şeirlərini not yazıları ilə birgə təqdim etmişdir ki, bu da şair kimi Şəlalə Ananın şeir aləmindəki "səyahət coğrafiyasını" aydın təsəvvür etməyə imkan yaradır. Texniki baxımdan izlədikdə bu şeirlərdə onun sözlə həssas şəkildə "oynadığını" da - omofonlar, omoqraflar, omonimləşmələr yolu ilə cinas qafiyələr yaratdığını da müşahidə edirik. Bu da bir yazar əhli, şair kimi Şəlalə Ananın sözün struktur qatına - "sözün tikilmə materialına" də dərindən bələdliyini göstərir. Əlbəttə ki, bu, sadəcə onun yaradıcılığında texniki söz tikmə rolunu oynamır, həm də bu söz naxışlarında məzmun və forma, məna və struktur bir-birlərini ahəngdar şəkildə bağlayır.

Amma bütün bunlarla yanaşı, mən belə düşünürəm ki, hər bir yazarın özünəməxsus bir baş mövzusu olur ki, o mövzu onu həmişə, bütün ömrü boyu müşayiət edir. Mən Şəlalə xanımın kitabını başdan-ayağa, necə deyərlər, "ot i do" - əvvəl"dən" sona"dək" oxudum. Dünya, həyat, ölüm və başqa mövzularla bərabər onun tez-tez müraciət elədiyi mövzu Ana mövzusudur. Düzdür, "Atama" adlı həzin duyğular ağuşunda yazılmış bir nümunəyə də rast gəlirik:

Gəldin, ürəyinə danmışdı sanki...
Gəldin, halallaşdın, getdin... O anki,
O günkü gəlişin yenə olaydı,
Atam, nəfəsinlə odam dolaydı!..

Ata həsrətiylə burnunun ucu göynəyən bir qız övladının qəlbinin titrəyişləri eşidilir burda. Ata dağdır, qürur yeri, öyünc yeridir övlad üçün. Bu səbəbdən də ata itkisi ilə reallıq olsa belə barışmayan şair yazır:

Gəlib hal-əhvalım yoxlasan yenə,
Gəlib saçlarımı qoxlasan yenə...
Gəl ki, uşaqlaşsın ərköyün qızın,
Gəl, denən, "ölmədim, sən öyün, qızım!"

Nə qədər ki, ata-ana sağdır, övlad valideyn yanında özünü uşaq kimi hiss edir. Bu hisslərin təzahürüdür ki. atasını ( atasının ruhunu) haraylayıb səsləyir ki, "gəl ki, uşaqlaşsın ərköyün qızın!".. Yuxarıda qeyd etdiyim kimi, hər şairin bir baş mövzusu - ana xətti təşkil edən bir mövzusu olur ki, bu, Şəlalə Anada özünə təxəllüs olaraq da götürdüyü Ana mövzusudur. Deyərdim ki, özünün baş mövzusu ilə yazar həm də əsas missiya olaraq bir öhdəliyi öz yaradıcılığında reallaşdırmış olur. Bunun da müəyyən əsas, real və həm də psixoloji bir səbəbi olur. Bu səbəbi özünün xarakterindəki səmimiyyətinə uyğun olaraq kitabın ön sözündə səmimi şəkildə etiraf edib: "Mənə şeiri, sözü, ədəbiyyatı sevdirən əziz anam bu gün artıq Haqq dünyasındadır. Anam indi nəğmələrimdə, şeirlərimdə yaşayır... Və nə yaxşı ki, bu gün o əvəzsiz, əsrarəngiz insanın müqəddəs "Ana" adı da adımla yanaşı çəkilir... "Ana" imzasını təkcə doğma anama məhəbbətlə deyil, bütün gözəl analarımıza sonsuz hörmət və ehtiramla daşıyıram".

Bu cümlələrdə Şəlalə Qabil qızı Hümmətlidən "Şəlalə Ana" ünvanlı bir şair xanıma gələn yolun trayektoriyası aydın görünür. Bəlkə də çoxları üçün aydın olmaya bilərdi onun üstündə təxəllüs kimi rəsmi şəkildə daşıdığı "Ana" sözünün - adının mənası. Amma bu cümlələrdən oxucu üçün




birbaşa anlaşılır hər şey. Azərbaycan milli mentalitetində uşaq, övlad ananın adını çəkmir heç vaxt, ona sadəcə "ana", yaxud bölgələrə müvafiq olaraq "nənə", "ciji" və s. kimi ümumiləşmiş müqəddəs adlarla müraciət edir və bu zaman ananın rəsmi adı elə ən əziz olan "ana" kəlməsi ilə əvəzlənib - əbədiləşir. Misal üçün, mən Şəlalə xanımın əziz anasının adının Şura ana ( Şura Mirzalı qızı) olduğunu bilmirdim, şairin özünü tanıdığım üçün sonradan soruşub öyrəndim. Bu, Azərbaycan insanının psixologiyasından doğan məntiqdir: ana elə anadır, onun adı da, özü də elə müqəddəs bir "Ana" kəlməsində əbədiləşir qəlbimizdə, yaddaşımızda. Buna paralel bir müqayisə də gətirirəm. Atamın babası Albalının qardaşı Hacı Misirxanın nəvələrindən çoxu öz soyadlarını Misirxanov yox, sadəcə Hacıyev şəklində rəsmi sənədlərində - pasportlarında rəsmiləşdiriblər. Yaxud da bu günün özündə Həccə, Kərbəlaya, Məşhədə gedənlərə öz rəsmi adları ilə deyil, qazandıqları dini titulla "Hacı", "Kərbəlayi", "Məşədi" deyə müraciət edilməsi də artıq milli psixologiyadan gələn ənənə halını alıb. Bu baxımdan düşündükdə Şəlalə xanımın özünə təxəllüs götürdüyü "Ana" adının milli-psixoloji keyfiyyətləri tam aydın olur. Anasının ona aşıladığı mənəvi dəyərlərlə yanaşı ədəbiyyat, söz-şeir sevgisi və özünün Ana sevgisi, Ana müqəddəsliyinə tapınma duyğusu onu "Ana"laşdırıb. Özü ailə qurmasa belə, bu tər-təmiz, saf Azərbaycan qızı mənəvi olaraq Analıq mərtəbəsini qazanıb. Bir paralel də gətirim ki, mənim qardaşımın uşaqları da ağılları kəsən vaxtlara kimi mənə "baba" deyirdilər. Hətta digər qardaşımı evləndirəndə, təzə gələn gəlinimiz bu mənzərəyə baxıb təəccüblə, "hələ heç özün ailə qurmamısan, ata olmamış, baba olmusan ki!"- demişdi. Bəli, bizim milli düşüncə və psixologiyamızda hədsiz saf olanlar ata (baba), ana (nənə) olmasalar da, onlar bu ülvi adlarla tanınıb - anılırlar.

***(Davamı var)***

***Şakir ALBALIYEV***

Kredo .- 2023.- 29 sentyabr.- S.14.